LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ

# E L M İ   X Ə B Ə R L Ə R

## HUMANİTAR ELMLƏR

## № 2, 2024

©Lənkəran Dövlət Universiteti, 2024
ISSN 2617-8036 (print)
ISSN 2960-1967 (online)

## R E D A K S İ Y A  H E Y Ə T İ

1. **Rzayev Fikrət *(BAŞ REDAKTOR)***
   *Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan*
2. **Əliyev Ayəddin *(APARICI REDAKTOR)***
   *Lənkəran Dövlət Universiteti, Lənkəran, Azərbaycan*
3. **Ağazadə Yədulla**
   *Lənkəran Dövlət Universiteti, Lənkəran, Azərbaycan*
4. **Əhməd Vüqar**
   *AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Bakı, Azərbaycan*
5. **Əlizadə Hikmət**
   *Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan*
6. **Əliyev Bəxtiyar**
   *Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan*
7. **İskəndərov Anar**
   *Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan*
8. **Kafkasiyalı Ali**
   *Atatürk Universiteti, Erzurum, Türkiyə*
9. **Kazımov Kamran**
   *Lənkəran Dövlət Universiteti, Lənkəran, Azərbaycan*
10. **Qasımlı Musa**
    *AMEA-nın Qafqazşünaslıq İnstitutu, Bakı, Azərbaycan*
11. **Qorobets Lyudumilla**
    *Armavir Dövlət Pedaqoji Universiteti, Armavir, Rusiya*
12. **Qasımlı Məhərrəm**
    *AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu, Bakı, Azərbaycan*
13. **Quliyev Akif**
    *AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu, Bakı, Azərbaycan*
14. **Mahmudova Ceyran**
    *Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı, Azərbaycan*
15. **Məmmədov Arif**
    *Lənkəran Dövlət Universiteti, Lənkəran, Azərbaycan*
16. **Nikitenko Zinaida**
    *Moskva Dövlət Pedaqoji Universiteti, Moskva, Rusiya*
17. **Orucov Vidadi**
    *Bakı Dövlət Sosial-İqtisadi Kolleci, Bakı, Azərbaycan*
18. **Səbzəliyev Sifariz**
    *Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, Azərbaycan*
19. **Tahirov İlham**
    *AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu, Bakı, Azərbaycan*
20. **Tahirli Abid**
    *AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Bakı, Azərbaycan*

# E D I T O R I A L  B O A R D


1. **Rzayev Fikret (EDITOR IN-CHIEF)**
   *Azerbaijan State Pedagogical University, Baku, Azerbaijan*
2. **Aliyev Ayeddin (MANAGING EDITOR)**
   *Lankaran State University, Lankaran, Azerbaijan*
3. **Agazade Yadulla**
   *Lankaran State University, Lankaran, Azerbaijan*
4. **Ahmed Vugar**
   *ANAS Institute of Literature named after Nizami Ganjavi, Baku, Azerbaijan*
5. **Alizade Hikmet**
   *Baku State University, Baku, Azerbaijan*
6. **Aliyev Bakhtiyar**
   *Baku State University, Baku, Azerbaijan*
7. **Iskandarov Anar**
   *Baku State University, Baku, Azerbaijan*
8. **Kafkasiyali Ali**
   *Ataturk University, Erzurum, Turkey*
9. **Kazimov Kamran**
   *Lankaran State University, Lankaran, Azerbaijan*
10. **Gasimli Musa**
    *ANAS Institute of Caucasus Studies, Baku, Azerbaijan*
11. **Gorobets Lyudumila**
    *Armavir State Pedagogical University, Armavir, Russia*
12. **Gasimli Maharram**
    *ANAS Institute of Literature named after Nizami Ganjavi, Baku, Azerbaijan*
13. **Guliyev Akif**
    *Azerbaijan University of Languages, Baku, Azerbaijan*
14. **Mahmudova Jeyran**
    *Azerbaijan State University of Culture and Arts, Baku, Azerbaijan*
15. **Mammadov Arif**
    *Lankaran State University, Lankaran, Azerbaijan*
16. **Nikitenko Zinaida**
    *Moscow State Pedagogical Universityi, Moscow, Russia*
17. **Orudjov Vidadi**
    *Baku State Socio-Economical College, Baku, Azerbaijan*
18. **Sabzaliyev Sifariz**
    *Azerbaijan State University of Economics, Baku, Azerbaijan*
19. **Tahirov Ilham**
    *ANAS Institute of Linguistics named after Nasimi, Baku, Azerbaijan*
20. **Tahirli Abid**
    *ANAS Institute of Literature named after Nizami Ganjavi, Baku, Azerbaijan*

# M Ü N D Ə R İ C A T

1. **Aynur Fərəcova**
Nuh peyğəmbər obrazının "İlk əcdad – mədəni qəhrəman" kimi teoqonik semantikası.................................................................................................... 5

2. **Esmira İsmayılova**
Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poemasında milli mənəvi dəyərlərin təbliği və milli yaddaşa çağırış motivləri................................................ 13

3. **Rakif Ibadov**
Heydar Aliyev and the development of Azerbaijan economy (in the example of construction and improvement works).................................................................... 21

# NUH PEYĞƏMBƏR OBRAZININ "İLK ƏCDAD – MƏDƏNİ QƏHRƏMAN" KİMİ TEOQONİK SEMANTİKASI

**Aynur Fərəcova**
Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu, Bakı, Azərbaycan
e-mail: karimovaaynur@gmail.com
DOİ: 10.30546/2960-1967.2024.2.10

**Xülasə.** Nuh peyğəmbər obrazı həm səmavi dinlərdə (vəhy dinlərində), həm səmavi olmayan dinlərdə, həm də dünya xalqlarının folklor və mifologiyasında ən geniş yayılmış obrazlardan biridir. Nuhun dini-mifoloji obrazında üç detal xüsusi əhəmiyyət kəsb edir: 1. Nuhun Allahın elçisi (peyğəmbəri) olması; 2. Onun canlıların nəslini dünya daşqınından xilas etməsi; 3. Daşqından sonra yeni insan nəslinin əsasını qoyması.
Vəhy dinlərinin obrazı olan Nuh peyğəmbər folklorlaşarkən epik-mifoloji xarakterli transformasiyalara uğramış və bu da öz növbəsində onunla bağlı yeni mətnlərin meydana çıxmasına səbəb olmuşdur. Bu prosesdə diqqət çəkən ən mühüm məsələ isə Nuh obrazının mifoloji-teoqonik cizgilər qazanmasıdır. Folklor mətnləri Nuhun bir ilk əcdad, mədəni qəhrəman kimi yaradıcı funksiyasını ortaya qoyur. O, yerlərə ad verib, onları məskunlaşan yeni yerlərə çevirməklə bu yerləri mədəni Vəhy dinlərindəki Nuh peyğəmbər obrazı folklorlaşarkən ilk əcdad – mədəni qəhrəman arxetipinin cizgilərini qazanaraq teoqonik obrazlar sisteminə daxil olmuşdur.
**Açar sözlər:** teoqoniya, teo-kosmoqoniya, teoqonik obrazlar, Nuh, ilk əcdad, mədəni qəhrəman, xilaskar, demurq

## Giriş

Azərbaycan folkloru vəhy dinləri (səmavi dinlər) ilə bağlı teoqonik obrazlarla zəngindir. Uca Allah yer üzünə öz peyğəmbərləri (Musa Kəlimullah, İsa Ruhullah və Məhəmməd salavatullah) vasitəsilə "Tövrat", "İncil" və "Quran" kimi kitablar yollamışdır. Bu kitablarda da öz növbəsində müxtəlif peyğəmbərlərə aid qissələr (hekayətlər) vardır. Həmin qissələr əsrlərdən bəri xalq arasında yayılaraq folklorlaşmış, mifikləşməyə, epikləşməyə məruz qalmışdır. Bu cəhətdən, Azərbaycan folklorunda Adəm, Nuh, Süleyman, Musa, İbrahim, Yaqub, İsa, Cərcis və s. kimi peyğəmbərlər haqqında çoxlu əfsanələrə rast gəlmək mümkündür. Peyğəmbərlər Allah tərəfindən kitab verilənlər və verilməyənlər olaraq iki qrupa ayrılırlar. Kitab və şəriət verilənlər rəsullar, verilməyənlər nəbilər adlanırlar. Adəm, Nuh, İbrahim, Musa, İsa və Məhəmməd peyğəmbərlər rəsullardır. Lakin bütün peyğəmbərlər kitab alıb-almamaqlarından asılı olmayaraq, Uca Allahın yer üzündəki elçiləri idilər. Yəni onlar bilavasitə Allah/Tanrı ilə bağlı idilər. Bu cəhətdən, folklorda Allahla hər hansı şəkildə rabitəsi olan peyğəmbər və digər övliya obrazlarını teoqonik obrazlar hesab etmək olar. Lakin məsələ mifik-teoqonik obrazlarla bağlı olduğu kimi o qədər də sadə deyildir. Belə ki, vəhy dini peyğəmbərlərini birbaşa teoqonik obraz hesab etmək olmaz. Burada ən əsas məqam vəhy dinlərindəki peyğəmbər obrazları ilə onların folklora transformasiya olunmuş obrazlarının bir-birindən fərqləndirilməsi ilə bağlıdır.

**Tədqiqat**

Nuh peyğəmbər obrazı həm səmavi dinlərdə (vəhy dinlərində), həm səmavi olmayan dinlərdə, həm də dünya xalqlarının folklor və mifologiyasında ən geniş yayılmış obrazlardan biridir. S.S.Averintsev bu obraz haqqındakı oçerkində göstərir ki, Nuh – yəhudilik və xristianlıq rəvayətlərində dünya daşqını haqqındakı hekayətlərin qəhrəmanı, daşqından xilas olmuş mömin və xilas olmaq üçün gəmini tikən, heyvanlar və quşlar dünyasının xilaskarı, öz oğlanlarının nümunəsində daşqın sonrası insan nəslinin ilk əcdadıdır [20, s.224].

Nuhun bu dini-mifoloji obrazında üç detal xüsusi əhəmiyyət kəsb edir:

1. Nuhun Allahın elçisi (peyğəmbəri) olması;
2. Onun canlıların nəslini dünya daşqınından xilas etməsi;
3. Daşqından sonra yeni insan nəslinin əsasını qoyması.

“Quran”da Nuh peyğəmbər haqqında geniş nəql olunur. “Hud” surəsində (25-49-cu ayələr), “Nuh” surəsində dünyanı su basmasından danışılır. “Hud” surəsində deyilir ki, Allah tövhid (təktanrılıq) dinini yaymaq üçün Nuhu öz xalqına peyğəmbər seçir. Ancaq Nuha qulaq asan az olur. Adamların çoxu Nuhu yalançı hesab edirlər. O da insanlara Allahın bəlasının olacağı haqqında xəbər verir:

36. Nuha belə vəhy olundu: «Əvvəlcə iman gətirənlərdən başqa, tayfandan daha heç kəs iman gətirməyəcək. Onların etdikləri əməllərə görə kədərlənmə!

37. Nəzarətimiz altında və vəhyimiz üzrə (sənə öyrədəcəyimiz kimi) gəmini düzəlt, zülm edənlər barədə mənə müraciət etmə. Çünki onlar suda boğulacaqlar” [17, s.190].

Nuh hər bir canlıdan bir cüt (bir erkək, bir dişi) seçib onları və iman gətirən insanları öz tikdiyi gəmiyə mindirir. Nuhun oğlu Kənan iman gətirmir və bir dağın başına çıxır. Nuha inanmayanların hamısı boğulub ölürlər. Sonra su çəkilir, gəmi Cudi dağında dayanır. İnsanların və heyvanların yeni nəsli gəmidəki canlılarla təzədən davam edir [17, s.190].

Dünya daşqını haqqında “Oğuznamə” dastanında da bəhs olunur. Fəzlullah Rəşidəddin “Oğuznamə”sində (XIV əsr) Oğuz xalqının şəcərə tarixi öz başlanğıcını Nuh peyğəmbərdən götürür. Həmin şəcərədə Yafət, Dib Yavku xan və Qara xandan sonra Oğuz xan gəlir [21, s.25]. Əbülqazinin “Oğuznamə”sindəki şəcərədə birinci yerdə Adəm peyğəmbər, 10-cu yerdə Nuh peyğəmbər, 12-ci yerdə Türk, 19-cu yerdə Oğuz xan durur [13, s.47-51].

S.Rzasoy yazır ki, “bu xronikalarda azərbaycanlıların ulu babaları olan Türk və Oğuz xan birbaşa Nuh peyğəmbərə bağlanır. Bu yanaşma Nuh peyğəmbərin oğuz-türk mifoloji-epik ənənəsinin üzvi struktur elementinə çevrilməsinin əsasında durur” [19, s.4].

Qeyd edək ki, müəllifin bu fikri vəhy dinləri ilə bağlı dini obrazların, o cümlədən Nuh peyğəmbər obrazının teoqonik-mifoloji ənənəyə necə daxil olmasını da izah edir. Göründüyü kimi, XIV əsr tarixçisi Fəzlullah Rəşidəddin və XVII əsr tarixçisi Əbülqazi Bahadır xanın Oğuz nəsil şəcərəsi vəhy dinlərindəki nəsil şəcərəsi ilə birləşdirilmişdir. Oğuz xanın şəcərəsi Tanrıdan başlanan teoqonik şəcərədir. Həmin şəcərənin dini mənşəli Nuh peyğəmbər şəcərəsi ilə birləşdirilməsi vəhy dinindəki peyğəmbərlərin folklor ənənəsindəki teoqonik-mifoloji

şəcərəyə daxil edilməsini göstərir. Yəni dini Nuh obrazı folklora transformasiya olunaraq teoqonik obrazlar sisteminə daxil edilmişdir.

Nuh peyğəmbər haqqındakı Azərbaycan əfsanələri "Quran"la çox səsləşir. Lakin onların arasında fərqlər də vardır. Aynur Babək bu haqda göstərir ki, Nuhun tufanı haqqında məlumat "Quran"da və ondan əvvəlki müqəddəs kitablarda da var. Lakin maraqlı olan budur ki, "dini kitablarda Nuhun tufanındakı sel-su yaradıcı ünsür, yaradıcı stixiya kimi göstərilmir. Ancaq xalq arasında Nuhun tufanı haqqındakı əfsanələrdə su yaradılışla bağlıdır" [10, s.55].

Müəllif bu fikri ilə mühüm bir məsələyə işarə etmişdir. Suyun canlı varlıq kimi yaradıcı funksiyası mifoloji ənənə ilə bağlıdır. Dini mətnlərdəki Nuh obrazı folklorlaşarkən mifik ənənələrlə qaynayıb-qarışmış və bu da onun teoqonik-mifoloji şəcərəyə daxil olmasını təmin etmişdir.

"Nuh tufanı" qissəsini mifoloji yaddaşdan "Quran" və Tövrat" qissələrinə qədər kontekstdə nəzərdən keçirən F.Bayat göstərir ki, Azərbaycan folklorunda geniş yayılan Nuh tufanı Kitabi-Müqəddəsdə və özəlliklə də Quran-i Kərimdə eyni adlı qissənin zamanla sadəcə folklorlaşması ilə məhdudlaşmayıb, həm də "müqəddəs kitaba uyğun gəlməyən yeni motivli əfsanələrin və nağılların yaranmasına səbəb olmuşdur" [11, s.95].

Müəllifin bu fikri aydın şəkildə göstərir ki, vəhy dinlərinin obrazı olan Nuh peyğəmbər folklorlaşarkən epik-mifoloji xarakterli transformasiyalara uğramış və bu da öz növbəsində onunla bağlı yeni mətnlərin meydana çıxmasına səbəb olmuşdur. Bu prosesdə diqqət çəkən ən mühüm məsələ isə Nuh obrazının mifoloji-teoqonik cizgilər qazanmasıdır.

Azərbaycanda Nuh peyğəmbərlə bağlı əfsanələrin geniş yayıldığını artıq qeyd etdik. Bu əfsanələr Naxçıvan bölgəsində daha çox rast gəlinir. Naxçıvan xalq yaradıcılığında Nuhun adı məşhurdur. Bu regionun bir çox toponimləri, xüsusilə dağ adları və s. Nuhun adı ilə bağlıdır. Naxçıvandakı Nuh əfsanələrində Naxçıvan torpağı, eli, bölgəsinin yaradılışı, ümumiyyətlə, Nuhun adı ilə əlaqəlidir. O dərəcədə ki, hətta Məhərrəm Cəfərli Naxçıvan folklorunun özünü "Nuhdan və mifdən başlanan Naxçıvan folkloru" adlandırmışdır [12, s.7].

S.Rzasoy Nuhla haqqındakı bağlı Azərbaycan əfsanə mətnlərinin süjet xəttində aşağıdakı motivlərin olduğunu göstərir:

1) Daşqın haqqında xəbər;
2) Gəmininin düzəldilməsi;
3) Qarının yaddan çıxması;
4) Cəmidəki macəralar;
5) Torpaq axtarışı;
6) Nuhun ad verdiyi Naxçıvan dağları;
7) Yeni həyatın başlanğıcı [19, s.21-36].

Azərbaycan epik mətnlərindəki Nuh obrazının iki əlamətdar cəhət vardır:

Birincisi, Nuh bütün folklor mətnlərində Allahın peyğəmbəri hesab olunur;

İkincisi, həmin mətnlərdə Nuh Allahın peyğəmbəri olmaqla bərabər, artıq əski mif qəhrəmanına çevrilmişdir. O, bir peyğəmbərdən çox mifik düşüncədəki "ilk əcdad – mədəni qəhrəman" kimi hərəkət edir. Bu da onun bir peyğəmbər kimi epik-mifoloji əcdad, hami-xilaskar, Tanrıoğlu obrazına transformasiya olunduğunu göstərir. Başqa sözlə, dini obraz artıq mifoloji-teoqonik obraza çevrilmişdir.

Nuh haqqındakı əfsanələrin süjeti mifoloji mətnlərdəki "kosmos-xaos-kosmos" yaradılış sxemini əks etdirir:

Kosmosdan xaosa keçid – dünyanın məhvi;

Xaosdan kosmosa keçid – dünyanın yenidən yaradılmasıdır.

Mifologiya elmində dünyanın yaranması – "kosmoqoniya", onun məhv olması – "esxatologiya" terminləri ilə işarə olunur.

Qeyd edək ki, kosmoqoniya və esxatologiya bir-biri ilə sıx şəkildə bağlıdır. Çünki yaradılış zəncirvari prosesdir: kosmos və xaos, yəni yaranış və məhv olma, doğum və ölüm daim bir-birini əvəz edir. Bunu biz Nuh haqqındakı əfsanələrdə də müşahidə edirik. Bu əfsanələrin hamısı (köhnə) dünyanın sel-su, tufan, daşın vasitəsilə məhvi və yeni dünyanın yaranmasından bəhs edir. Həmin əfsanələrdə Nuh artıq teoqonik obraz kimi çıxış edir. Mətnlərdə deyilir:

"Deyilənə görə, Nuh Nəbi bilirmiş ki, tufan baş verəcək, dünyanın üzünü su alacaq. Odur ki, böyük bir gəmi düzəltmək qərarına gəldi" [1, s.66; 2, s.63].

"Belə söyləyirlər ki, bir gün Nuh peyğəmbərə xəbər gəlir ki, yer üzünü su basacaq" [7, s.56].

Bu mətnlərdə diqqət çəkən mühüm məqam yer üzünü suyun basacağı haqqındakı xəbərin Nuha məhz dini kitablarda olduğu kimi deyil, mifoloji xəbər formasında çatmasıdır. "Quran"da Nuh peyğəmbər imana gəlməyən xalqa onların cəzalanacağı haqqında xəbər verir. Bu mətnlərdə isə Allah haqqında heç nə deyilmir. Yəni dini informasiya tam şəkildə mifoloji informasiyaya transformasiya olunmuşdur. Nuh burada Allahın peyğəmbərindən daha çox Tanrı şəcərəsinə aid olan mifik əcdad kimi çıxış edir. Bunu Naxçıvandan toplanmış mətnlərdəki Ac pəhləvan obrazı da sübut edir.

Mətndə deyilir ki, gəmini düzəltmək üçün ağac lazım idi. Meşədəki ağaclar isə çox hündür idi. Meşədə Ac adlı bir pəhlivan yaşayırdı. Çox güclü idi. Hər dəfəsində bir öküzü yeyirdi. Nuh Ac pəhləvana doyunca yemək vermək müqabilində onu meşədən ağac qırmağa razı salır [1, s.66].

Nuh və Ac pəhlivanın əhvalatı dini kitablarda yoxdur və məzmunu baxımdan ilk əcdadın qəhrəmanlıqlarını yada salır. Miflərdə ilk insan həmişə özünün ən güclü rəqibinə qalib gəlməklə məşhur qəhrəmana çevrilir. Nuhun da Ac pəhlivanı özünə tabe etməsi həmin miflərin süjet sxemini yada salır. Yəni əfsanələrdəki Nuh daha çox mifik ilk əcdada bənzəyir. İlk əcdad isə, bir qayda olaraq, Tanrının oğlu hesab olunur.

Əlbəttə, Nih haqqındakı əfsanələrin kökü dini kitablara, xüsusilə "Quran"a bağlandığı üçün bu obraz, təbii ki, özünün dini cizgilərindən tam məhrum ola bilməzdi. Ona görə də, başqa əfsanə mətnlərdə tufan-daşqının beş verməsinin səbəbləri "Quran"da olduğu kimi izah olunur.

Mətnlərdə deyilir ki, Nuh xeyirxah, yolgöstərən adam imiş. Kim yolundan azırmış, onlara doğru yol göstərirmiş. O, insanları pis yoldan çəkindirmək üçün daim onları daşqınla xəbərdar edirmiş: "Vaxd gələndə bu yer üzünü su alajax" [9, s.48].

"Allah gördü ki, insannar azışıfdı… Allah-tala Nuh peyğəmbərə didi ki, gəmi düzəltməh lazımdı" [9, s.49].

"Allah-tala Nuha tapşırır ki, yer üzünü su alacaq, sən get gəmi bağla" [14, s.38].

Ancaq maraqlıdır ki, bu mətnlərdə Allahının insanlara qəzəblənməsinin dini kitablarda olmayan bir səbəbi də vardır. Onlar Nuhun gəmisini tualetə çevirib murdarlıq edirlər. Allah da onların bədəninə yara yollayır. Və məlum olur ki, onların öz nəcasəti həmin yaraların dərmanıdır. İnsanların gəmidə nəcasət qoymur, hamısını təmizləyib özlərinə sürtürlər [9, s.48-49; 16, s.34].

Beləliklə, aydın olur ki, Nuh haqqındakı Azərbaycan folklor mətnlərində Allahın peyğəmbəri olan Nuh Oğuz tanrıçılığının teoqonik-mifoloji görüşləri ilə qaynayıb-qarışaraq Azərbaycan teoqonik obrazlar sisteminə daxil olmuşdur.

Azərbaycan folklorundakı Nuh peyğəmbər obrazında çox asanlıqda mifik "ilk əcdad – mədəni qəhrəman" arxetipini görmək olur.

Nuh haqqındakı Azərbaycan folklor mətnlərində onun peyğəmbərdən daha çox mifik ilk əcdad, mədəni qəhrəman kimi çıxış etməsi bu obrazın oğuzların tanrıçılıq inancının teoqonik təsəvvürləri ilə qaynayıb-qarışdığını göstərir. Çünki ilk əcdad bilavasitə "tanrı oğlu" arxetipi ilə bağlıdır.

Folklor mətnlərində Nuh həm ilk əcdad, həm də mədəni qəhrəman funksiyalarını yerinə yetirir. İstər gəmidə baş verən hadisələr, istərsə də tufandan sonra baş verənlərin hamısı dünyanın və onu təşkil edən elementlərin yenidən yaradılmasını əhatə edir. Məsələn, mətnlərin birində qaranquş arının dilini dişlədiyi üçün o – "pəltək", ilanın dilini dişlədiyi üçün o – "haça dil", ilan qaranquşun quyruğunu tutmaq istəyərkən quşun quyruğu – "haça quyruq" olur [5, s. 200-201]. Yaxud digər bir əfsanədə Ağ quzğun Nuhun tapşırığını yerinə yetirmədiyi üçün ona irad tutan qaranquşun dilini dişləyib qoparır [8, s.34-35].

Başqa bir mətndə deyilir ki, üç usta qızlarını onlara verməyin müqabilində Nuh üçün gəmi tikirlər. Nuhun isə cəmi bir qızı var idi. Vaxt tamam olanda Nuhun eşşəyi və iti də qıza çevrilib ustalara ərə gedirlər. Əfsanəyə görə, eşşək xasiyyətli və it xasiyyətli qızlar Nuhun eşşəyi və itindən törəyənlərdir [6, s.3].

Bir əfsanədə Nuh gəmidəki ilan narahatlıq yaratdığı üçün onu sürünən heyvana, toyuq da nahaq danışan olduğu üçün onu uça bilməyən heyvana çevirir [2, s.49].

Masallı bölgəsindən toplanmış əfsanədə müxtəlif dillərin yaranmasından bəhs olunur. Gəmidəki insanlar natəmizlik edib gəmini nəcasətlə murdarlayırlar. Allah onların bədəninə

yara salır. İnsanların nəcasəti həmin yaraya dərman olur. Adamlar sağalmaq üçün təcili gəmini tərtəmiz edirlər. Lakin insanlar gəmidən yerə düşəndən sonra bir-birinin dillərini başa düşmürlər və beləliklə, müxtəlif dillərdə danışan yetmiş iki millət yaranır [18, s.76-77].

Bir mətndə hətta Kərbəla hadisələrinin baş verəcəyi, İmam Hüseynin şəhid olacağı Nuha xəbər verilir [4, s.50].

Naxçıvandan toplanmış əfsanələrdə yer-yurdların, dağların yaranması Nuhla əlaqələndirilir. Mətnlərdən birində deyilir ki, Nuhun gəmisi Naxçıvan olan yerə gəlir. "Nuhun çıxdığı yerə indi Naxçıvan deyillər. Oranın adı vaxtiynən Nuh çıxan yer oluf" [15, s.49]. Naxçıvan əfsanələrinə görə, Nuhdaban adı ona görə yaranıb ki, Nuh gəmidən düşən yerə ilk dəfə onun dabanı dəyib [2, s.71]. Bu əfsanələrdə Kəmki və Bəlkə dağlarının adlarının yaranması da Nuhla əlaqələndirilir:

"Nuhun gəmisi keçdiyi yerdən xeyli aralıda yenə də çətinniyə düşür. Nuh deyir:

– Bu dağ o dağdan kəm deyil.

Dağın adı "Kəmki" olur" [3, s.36].

"Nuh gəmisi ilə dağların arasınnan keçəndə gəlib dəyillər bu dağa. Nuh qayıdın deyir:

– Bəlkə, dağdır.

O günnən bu dağın da adı "Bəlki dağı" olur". Bu dağ Ordubad rayonundadır [3, s.36].

**Nəticə**

Verilmiş mətnlər Nuhun bir ilk əcdad, mədəni qəhrəman kimi yaradıcı funksiyasını ortaya qoyur. O, yelərə ad verib, onları məskunlaşan yeni yerlərə çevirməklə bu yerləri mədəni qəhrəman kimi yenidən yaratmış olur. O cümlədən Nuhun gəmisində heyvanların müxtəlif səbəblərdən yeni formaya düşmələri, müxtəlif millətlərin, dillərin yaranması da Nuhun ilk əcdad kimi yaradıcı funksiyasını ortaya qoyur. Mifologiyada ilk əcdad – mədəni qəhrəman bütün bunları Tanrı oğlu olduğu, yəni Tanrının teoqonik şəcərəsinə daxil edildiyi üçün həyata keçirə bilir. Bu da onu göstərir ki, vəhy dinlərindəki Nuh peyğəmbər obrazı folklorlaşarkən ilk əcdad – mədəni qəhrəman arxetipinin cizgilərini qazanaraq teoqonik obrazlar sisteminə daxil olmuşdur.

## Ədəbiyyat

1. Abbaslı, İ. (2000). Azərbaycan folkloru antologiyası V kitab. Qarabağ folkloru / Bakı, Səda, 413 s.
2. Babək, A. (2011). Azərbaycan folklorunda su ilə bağlı inamlar. Bakı, Nurlan, 212 s.
3. Bayat, F. (2013). Masallı folkloru örnəkləri I kitab / Bakı, Elm və təhsil, 418 s.
4. Bayat, F. (2021). Qissədən əfsanəyə, yazıdan sözə. Folklorlaşan ulul-əzm peyğəmbərlər (Dini folklor – I). Bakı, Elm və təhsil, 230 s.
5. Bünyadov Z.M., Məmmədəliyev V.M. (2004). Qurani-Kərim Bakı, Çıraq, 680 s.
6. Cəfərli, M. Babayev, R. (2010) AFA-N-I. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru [3 cilddə], Naxçıvan, Əcəmi, I cild, 511 s.

7. Cəfərli, M. Babayev, R. (2012). AFA-N-III. Azərbaycan folkloru antologiyası Naxçıvan folkloru [3 cilddə] / Naxçıvan, Əcəmi, III cild, 560 s.
8. Cəfərli, M. Səfərov, Y. Babayev, R. (2010). AFA-N-II. Azərbaycan folkloru antologiyası Naxçıvan folkloru [3 cilddə] / Naxçıvan, Əcəmi, II cild, 496 s.
9. Caferli, M. (2007). Folklor ve Etnik-Milli Şuur / (Türkiye Türkcesine Tercime Eden A.Altaylı). Ankara, Kültür Ajansı Yayınları, 128 s.
10. Fərzəliyev, T. Qasımlı, M. (1994). Azərbaycan folkloru antologiyası I cild. Naxçıvan folkloru / Bakı, Sabah, 388 s.
11. İsmayıl, M. (2005). Xalq yaddaşının izləri Bakı, Elm.
12. İsmayılov, H. Ələkbərli, Ə. (2004). Azərbaycan folkloru antologiyası X cild. İrəvan çuxuru folkloru / Bakı, Səda, 471 s.
13. Qəniyev, S. (2005). Azərbaycan folkloru antologiyası. XI cild. Şirvan folkloru. Bakı, Səda, 442 s.
14. Mirzəyev, H. İsmayılov H, Ələkbərli Ə. (2006). Azərbaycan folkloru antologiyası XV kitab. Dərələyəz folkloru / Bakı, Səda, 483 s.
15. Osmanlı, İ.M, Əbülqazi Bahadır xan. (2002). Şəcərei-Tərakimə (Türkmənlərin soy kitabı). Rus dilindən tərcümə edən, Bakı, Azərbaycan Milli Ensiklopediyası N-PB, 146 s.
16. Rüstəmzadə, İ. (2006). Azərbaycan folkloru antologiyası XVI kitab. Ağdaş folkloru /. Bakı, Səda, 495 s.
17. Rüstəmzadə, İ. (2012). Qarabağ: folklor da bir tarixdir III kitab. Bakı, Elm və təhsil, 468 s.
18. Rüstəmzadə, İ. Fərhadov, Z. (2012). Qarabağ: folklor da bir tarixdir I kitab. Bakı, Elm və təhsil, 464 s.
19. Rzasoy, S. (2012). Nuh peyğəmbər haqqında Azərbaycan əfsanələri // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXXIX kitab. Bakı, Elm və təhsil, s.19-36
20. Аверинцев, С.С. (1980). Очерк «Ной» / Мифы народов мира. В 2-х томах. Том 2. Москва, Советская энциклопедия, с.224-226
21. Рашид ад-Дин, Ф. (1987). Огузнаме. Перевод с персидс., комм., прим. и указатели Р.М.Шукуровой / Ф.Рашид-ад-Дин. Баку, Элм, 127 с.

## THEOGONICAL SEMANTICS OF THE CHARACTER OF THE PROPHET NOAH AS "THE FIRST ANCESTOR – A CULTURAL HERO"

**Aynur Farajova**
Azerbaijan National Academy Of Sciences Folklore İnstitute, Baku, Azerbaijan

The image of Prophet Noah is one of the most widespread images in both heavenly religions (revelatory religions), non-heavenly religions, and folklore and mythology of the peoples of the world. Three details are of particular

importance in the religious-mythological image of Noah: 1. The fact that Noah is God's messenger (prophet); 2. His saving the living generation from the world flood; 3. The establishment of a new human race after the flood. The prophet Noah, who is the image of the revelation religions, underwent epic-mythological transformations during folklore, which in turn led to the emergence of new texts related to him. The most important issue in this process is that the image of Noah acquired mythological and theogonic features. Folklore texts reveal Noah's creative function as a first ancestor, a cultural hero. He gave names to places and turned them into new inhabited places, while the image of the Prophet Noah in cultural Revelation religions became folkloric, gaining the features of the first ancestor - cultural hero archetype and entering the system of theogonic images.
**Keywords:** theogony, theo-cosmogony, theogonic images, Noah, first ancestor, cultural hero, savior, demurg

## ТЕОГОНИЧЕСКАЯ СЕМАНТИКА ОБРАЗА ПРОРОКА НОЯ КАК "ПЕРВОГО ПРЕДКА - КУЛЬТУРНОГО ГЕРОЯ"

**Айнур Фараджова**
Институт фольклора национальной академии наук Азербайджана, Баку, Азербайджан

Образ Пророка Ноя — один из самых распространенных образов как в небесных религиях (религиях откровения), так и в ненебесных религиях, а также в фольклоре и мифологии народов мира. В религиозно-мифологическом образе Ноя особое значение имеют три детали: 1. Тот факт, что Ной является посланником Бога (пророком); 2. Его спасение живого поколения от всемирного потопа; 3. Создание новой человеческой расы после потопа.
Пророк Ной, являющийся образом религий откровения, в ходе фольклора претерпел эпико-мифологические трансформации, что, в свою очередь, привело к появлению новых текстов, связанных с ним. Важнейшим моментом в этом процессе является то, что образ Ноя приобрел мифологические и теогонические черты. Фольклорные тексты раскрывают творческую функцию Ноя как первопредка, культурного героя. Он дал названия местам и превратил их в новые населенные места, а образ Пророка Ноя в культурных религиях Откровения стал фольклорным, приобретя черты первопредка - архетипа культурного героя и войдя в систему теогонических образов.
**Ключевые слова:** теогония, теокосмогония, теогонические образы, Ной, первопредок, культурный герой, спаситель, демург

Daxil oldu: 14.10.2024 Çap edildi: 27.12.2024

# MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYARIN "HEYDƏRBABAYA SALAM" POEMASINDA MİLLİ MƏNƏVİ DƏYƏRLƏRİN TƏBLİĞİ VƏ MİLLİ YADDAŞA ÇAĞIRIŞ MOTİVLƏRİ

**Esmira İsmayılova**
Lənkəran Dövlət Universiteti, Lənkəran, Azərbaycan
e-mail: esmira.ans@mail.ru
DOİ: 10.30546/2960-1967.2024.2.12

**Xülasə:** Məqalə XX əsr Cənubi və Şimali Azərbaycan ədəbiyyatının tanınmış simalarından biri, söz mülkünün sultanı adlandırılan Seyid Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poemasında milli-mənəvi dəyərlərin təsviri və təbliği, o cümlədən, bütün dövrlərin ən vacib problemi sayılan milli yaddaş məsələsinin qoyuluşuna, poemada bunun necə əks etdirilməsinə həsr olunmuşdur. Araşdırmada bu bəşəri dəyərlər Məhəmmədhüseyn Şəhriyar yaradıcılığının əsas istiqamətlərindən biri kimi təhlil edilir, irəli sürülən müddəalar poemadan gətirilən bəndlərlə qüvvətləndirilir. Tədqiqat işində şairin "Heydərbabaya salam" poeması ilə yanaşı, müasirlərinin, Şəhriyarşünas alimlərin təhlil etdiyimiz mövzu ilə bağlı əsərlərinə də istinad edilmiş, müqayisəli paralellər aparmaqla alınan nəticələrin hazırkı dövrlə əlaqəsi təmin olunmuşdur. Yeri gəldikcə araşdırılan məsələyə tədqiqatçının münasibəti bildirilimişdir. "Məhəmmədhüseyn Şəhriyarın Heydərbabaya salam" poemasında milli-mənəvi dəyərlərin təbliği və milli yaddaşa çağırış motivləri" məqaləsində müasir dövr Azərbaycan ədəbiyyatşünaslıq elmində mövzu ilə bağlı tədqiqatçı alimlərin fikirlərinə geniş yer ayrılmışdır.
"Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poemasında milli-mənəvi dəyərlərin təbliği və milli yaddaşa çağırış motivləri" mövzusunun tədqiqində əsas məqsəd Məhəmmədhüseyn Şəhriyarın anadilli irsinin bu günümüz üçün də aktuallığını saxladığını bir daha diqqətə çatdırmaq, şairin gələcək nəslə ötürmək istədiyi mesajların vacibliyini göstərmək, poemanın əbədiyaşarlılığının sirlərini müasir kontekstdən tədqiq etməklə hazırkı günümüzdəki bədii-tərbiyəvi əhəmiyyətini əsaslandırmaq, oxucunu bu dəyərli irsdən bəhrələnməyə istiqamətləndirməkdir.
Tədqiqat işində ədəbi nümunələrin təhlili əsasında M. Şəhriyar soy-kökünə, milli-mənəvi dəyərlərə bağlı olan şair kimi dəyərləndirilmiş, milli yaddaş məsələsinin ədəbiyyatda əksi və təbliği vacib amil sayılmışdır.
**Açar sözlər:** Şəhriyar, "Heydərbabaya salam", milli-mənəvi dəyərlər, milli yaddaş, xəlqilik, müasirlik, bəşərilik

## Giriş

Söz mülkünün sultanı, "əvvəli sultani eşq, axırı ustadi-şeir Şəhriyar" adlandırılan, yaradıcılığı zaman-məkan sərhədi tanımayan Seyid Məhəmmədhüseyn Şəhriyar (1906-1988) XX əsrin o taylı-bu taylı Azərbaycana, bütün türk dünyasına, bütövlükdə dünya ədəbiyyatına bəxş etdiyi nadir sənətkarlardan sayılır. Şəhriyar poeziyasını yaşarı edən ən əsas cəhətlərdən biri yaradıcılığının xəlqiliyində, sözünün səmimiliyində, sadə həyat həqiqətlərini ustalıqla şeirə gətirməsindədir. Ustad sənətkar keçmiş xatirələr fonunda insana keçmişini xatırlatmaqla dünənlə bu gün arasında əlaqəni milli bağlarla təmin etməyə çalışmış, milli yaddaşın millətin tanıtımında böyük rolunun ədəbiyyatda əksini vacib hesab etmişdir. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev Məhəmmədhüseyn Şəhriyarın yaradıcılığındakı bu xüsusiyyətləri yüksək dəyərləndirmiş, xəlqiliyi, bəşəriliyi, humanizm prinsiplərini ustalıqla təbliğ etdiyinə görə onu ən çox sevdiyi şair adlandırmış, poetik irsinin bütün zamanlar üçün

əhəmiyyətini xüsusi vurğulamışdır: "Şəhriyar hər şeydən öncə son dərəcə qüdrətli bir şair və şəxsiyyətdir. Şəhriyar ədəbi irsinin bədii və fəlsəfi siqləti onun bəşəri konsepsiyasındadır. Qüdrətli şairin əsərləri bizi bu gün də yazıb-yaratmağa, gələcəyə nikbin gözlə baxmağa, bir sözlə, birləşməyə səsləyir" [3, s.357-358].

Məhəmmədhüseyn Şəhriyarın yaradıcılığı ilə yaxından tanış olanlar yaxşı bilir ki, şairin poeziyası mövzu, məzmun, forma baxımından olduqca zəngin və rəngarəngdir. "M.Şəhriyar ilk növbədə, ruh şairidir. Şairin anadilli poeziyasına başdan-başa milli ruh, milli ovqat hakimdir. Şairin ana dilində qələmə aldığı "Heydərbabaya salam" poemasını yaradıcı ruhun simfoniyası, bir insanın həyatının, millətin yaddaş xronologiyasının sözlə bədii nəqşi də adlandırmaq olar. Şəhriyarın xatirə pannosunda tünd rəng yoxdur, söz-rəng çalarları sakitləşdirici ovqata köklənib. Uşaqlıq, yeniyetməlik illərinin şirin xatirələri şairin yaddaşından süzüldükcə arınır, illərin xatirə tozu çırpılır, bəyazlaşır" [6].

Mövzu cəhətdən çoxşaxəli, rəngarəng olan Şəhriyar yaradıcılığında niyə məhz bu istiqaməti seçməyimiz təsadüfi deyil. Professor Yaşar Qarayevin təbirincə desək, "Fərariliyin ən bədnam çeşidi-əcdaddan üz çevirməkdir, kökdən, mənşədən, "mən" dən fərar eləməkdir, milli hafizədə, mənəvi yaddaşda (yəni əsəbdə, qanda, kökdə!) "skleroz" olmaqdır. Yaddaşı olmayan ədəbiyyat yalnız yaddaşı olmayan xalqın nəsibidir, siması olmayanın tarixi taleyi, zatı və nəsli, əsli və nəcabəti olmayanın alın yazısıdır. Üfüq, səma, göy daş saxlamadığı kimi, mənəvi və əxlaqi boşluq da yaddaş saxlamır" [1, s.6].

Seyid Məhəmmədhüseyn Şəhriyarın anadilli yaradıcılığını bu aspektdən-milli-mənəvi dəyərlər və milli yaddaş kontekstindən təhlilə cəlb etməklə mövzunu konkret olaraq "Heydərbabaya salam" poeması əsasında araşdırmağa çalışmış, gəldiyimiz qənaətləri nəticə bölümündə qeyd etmişik.

**Tədqiqatın mənbəyi və metodları**

Tədqiqat işinin obyekti kimi Şəhriyarın anadilli yaradıcılığının şah əsərlərindən olan "Heydərbabaya salam" poemasını seçmişik. İlk əvvəl ona görə ki, "Heydərbabaya salam" poeması Məhəmmədhüseyn Şəhriyarın anadilli yaradıcılığının ədəbi ictimaiyyətə məlum olan ilk və həm də şah əsəridir. Cənubi Azərbaycanda milli yaddaşın oyadılmasında, milli kimlik məsələsinin və milli şüurun formalaşmasında böyük rol oynayan "Heydərbabaya salam" poeması hələ şairin sağlığında dəfələrlə İran, Azərbaycan, Türkiyə və digər ölkələrdə çap olunmuş, müəllifinə böyük şöhrət və populyarlıq gətirmişdir. Poemada şairin Heydərbaba dağını vətən obrazının simvolu kimi təqdim etməsi, şəxsləndirməsi, uşaqlıq, yeniyetməlik xatirələrini onunla bölüşməsi, millətinin bu günü və sabahı ilə bağlı narahatlıqlarını dərd ortağı kimi paylaşması çox mətləblərdən xəbər verir, həm də forma-məzmun yeniliyi ilə diqqət çəkir. "Heydərbabaya salam" əsərinə yazdığı müqəddimədə Şəhriyar tərəfdaş kimi niyə məhz dağı seçdiyinə belə aydınlıq gətirir: "Dağ göylərə yaxındır. Dağ göylərə yaxın olduğu üçün peyğəmbərlər də Allaha doğru dağlardan yaxınlaşmaq istəyiblər. Dağlar təbiətin ən qabarıq şah

əsəridir. Dağın döşündən, dağların çatlarından göz yaşı kimi çağlayan saf və təmiz sular yaradıcı insanın himməti qədər böyük və təmizdir" [9, s.22].

Tədqiqat üçün əsas mənbə ustad şair Seyid Məhəmmədhüseyn Şəhriyarın anadilli yaradıcılığının şah əsərlərindən sayılan, sənətkara dünya şöhrəti qazandıran, günümüzə qədər yaşarı edən "Heydərbabaya salam" poeması olmuşdur. Həmçinin tədqiqatımızın dolğun və əhatəli olması üçün şəhriyarşünas alimlərin əsərlərindən də yeri gəldikcə istifadə etmiş, onların mövzu ilə bağlı fikirlərinə məqalədə istinadlar vermişik. Qeyd edək ki, Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poemasında milli-mənəvi dəyərlərin təbliği və milli yaddaşa çağırış motivləri" məqaləsi aşağıdakı elmi metodlar əsasında yazılmışdır:

- tədqiqatla əlaqəli fakt və materialların sistemləşdirilməsi metodu;
- toplanmış faktların sintezi və analizi metodu;
-problemə kompleks yanaşma və fərqli baxış bucağından nəzər salmaq;
- abstraktlaşdırma;
-ümumiləşdirmə metodundan istifadə etməklə elmi nəticələrin əldə olunması.

Araşdırmada tarixi-müqayisəli metoddan da istifadə edilmiş, tədqiqatın predmet və obyekti kimi seçilən nümunələr və onlara həsr olunan araşdırmaların meydana çıxdığı şərait nəzərə alınmışdır. İşin mahiyyəti müqayisəli təhlil və tədqiq tələb etdiyi üçün yeri gəldikcə, müqayisəli metoddan da istifadə olunmuşdur.

**Tədqiqat işi**

M.Şəhriyarı dünyaya tanıdan, ona böyük oxucu sevgisi və populyarlıq qazandıran "Heydərbabaya salam" poeması ilə tanış olanlar yaxşı bilir ki, əsərdə xatirələr fonunda bir millətin özəl, gözəl xüsusiyyətləri bir-bir sadalanır, dünənimizdə olan, bu günümüzdə artıq milli yaddaşdan silinməkdə olan, xatirəyə çevrilən bir çox milli dəyərlər dərin ürək yanğısı, qəlb ağrısı ilə xatırlanır, bir vətəndaşın millətinin sabahı üçün keçirdiyi narahatlıq duyğuları xatirələrin işığında parlaq bədii boyalarla əks olunur. Poemanın ən ali milli dəyərlərimizdən biri olan salamla başlaması, vətən övladına öyüd-nəsihətlə sonlandırılması heç də təsadüfi deyil, şairin milli dəyərlərə böyük diqqət yetirdiyinin sübutudur. "Heydərbabaya salam" deməklə Şəhriyar o taylı, bu taylı Azərbaycanı-bütöv vətəni, millətini salamlayır. Şairin Heydərbaba dağını insan kimi şəxsləndirməsi, böyük Vətən anlamına gətirib dərd ortağı etməsi dediklərimizin təsdiqidir. Ədəbiyyatşünas alim, akademik İsa Həbibbəylinin fikrincə, "Heydərbabaya salam" poeması Vətən haqqında yeni və qüvvətli poetik manifestdir" [4, s.7].

Heydərbaba, ildırımlar çaxanda,
Sellər, sular şaqqıldayıb axanda,
Qızlar ona səf bağlayıb baxanda,
Salam olsun şövkətüzə, elüzə,
Mənim də bir adım gəlsin dilüzə [ 11, s.229].
Heydərbaba, alçaqların köşk olsun,
Bizdən sonar qalanlara eşq olsun,

Keçmişlərdən gələnblərə məşq olsun,
Övladımız məzhəbini danmasın,
Hər içiboş sözlərə aldanmasın! [11, s.266].

"Heydərbabaya salam" poemasında M. Şəhriyarın təbliğ etmək istədiyi ali qayə budur-milləti millət edən ən vacib amil milli yaddaşıdır, millətin bu amilə sadiqliyidir, verdiyi dəyərdir, bağlantısıdır: "Millət - genetik səviyyədə, yaddaş - ağrı səviyyəsində dərk olunmuş vəhdətdən və bütövlükdən başqa bir şey deyildir. Yalnız yaddaş olan yerdə sabitlik və tamlıq var, nəsillər və əsrlər, ilahi və bəşəri dəyərlər və sərvətlər arasında əlaqə və estafet var. Əslində nəinki təbiət və insan, ekologiya və poeziya da yaddaşdır. Şəhid - ölümü ilə, şair ağrısı ilə yaddaşa qaynayıb qarışır. Və yaddaşın ömrü bir vicdana və haqqa xidmətin qədərindən, bir də qədir-qiymətə, qeyrətə çevrilən anların cəmindən yaranır" [1, s.6].

Qeyd edək ki, Seyid Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poemasının birinci hissəsini Azərbaycan türkcəsində yazması, 1954-cü ildə çap etdirməsi ana dilinin qadağan olunduğu Cənubi Azərbaycanda  çox böyük rezonans doğurmaqla yanaşı, həm də əsl ədəbi hadisəyə çevrilmişdi. Əsərlərini fars dilində yazan, bu dildə tanınıb şöhrət qazanan ustad bir sənətkarın öz xalqına birdən-birə ana dilində yazdığı "Heydərbabaya salam" çağırışı ilə üz tutması Cənubi Azərbaycanda 21 Azər hərəkatından sonrakı illərdə milli dirçəlişdə və milli kimliyə qayıdışda tarixi dönüş nöqtəsi oldu:

Heydərbaba, Nənəqızın gözləri,
Rəxşəndənin şirin-şirin sözləri,
Türki dedim, oxusunlar özləri,
Bilsinlər ki, adam gedər, ad qalar,
Yaxşı-pisdən ağızda bir dad qalar [11, s.239].

Ədəbiyyatşünas alim Gövhər Baxşəliyeva "Milli ruhun təntənəsi" məqaləsində şairin yaradıcılığında milli-mənəvi dəyərlərin təbliğini yüksək dəyərləndirərək yazırdı: "Şəhriyar poeziyası-bütövlükdə milli azərbaycanlı ruhunun təntənəsidir. Şəhriyarın füsunkar şeir aləmi, sehrli poetik dünyası büsbütün millidir, ruhumuzu oxşayır, oxucuya müqəddəs insani duyğuları, ülviyyəti aşılayır, ədalətə və azadlığa çağırır, məhəbbət və mərhəmət öyrədir" [2, s. 4].

Heydərbaba, dağın, daşın sərəsi,
Kəklik oxur, dalısında fərəsi,
Quzuların ağı, bozu, qərəsi,
Bir gedəydim dağ-dərələr uzunu,
Oxuyaydım: "Çoban, qaytar quzunu" [11, s.232].

İranda millətçilk siyasətinin yürüdüldüyü, azərbaycanlıların sıxışdırıldığı və dilinin yasaq edildiyi, adət-ənənələrinə xor baxıldığı bir dövrdə M. Şəhriyarın "Heydərbabaya salam" poemasını qələmə alması böyük hadisə idi. Bu əsər təkcə ədəbi aləmdə deyil, bütün ölkədə, türk dünyasında böyük əks-səda doğurdu, gələcəyə, sabaha inamını itirən millətə sanki güc-

qüvvət, qol-qanad verdi, azadlıq ruhunu oyatdı, sabaha olan ümidlərini közərtdi. Şərqşünas alim Əkrəm Rəhimli (Bije) poemanın bu xüsusiyyətlərini yüksək dəyərləndirərək yazırdı: "Ədəbiyyatımızın çox dəyərli incisi sayılan "Heydərbabaya salam" mənzuməsi əslində millətə çağırış, onu öz milli kimliyinə, kökünə qaytarmaq harayı idi" [8, s.39].

Qarı nənə gecə nağıl deyəndə,
Külək qalxıb qap-bacanı döyəndə,
Qurd keçinin Şəngülüsün yeyəndə,
Mən qayıdıb bir də uşaq olaydım,
Bir gül açıb ondan sonra solaydım [11, s.233].

Ustad sənətkarın "Heydərbabaya salam" poemasında qələmə aldığı uşaqlıq illərinin şirin xatirələri qəlbi sərinlədən yaz nəsimini xatırladır, bu xatirələr şairin təsvirində o illərin özü qədər safdır, təmizdir, kövrəkdir, hamıya əziz və doğmadır:

Əmməcanın bal bələsin yeyərdim,
Sondan durub üst donumu geyərdim,
Baxçalarda tiringəni deyərdim,
Ay özümü o əzdirən günlərim,
Ağac minib, at gəzdirən günlərim [11, s.233-234].

Şəhriyarın tərki-dünyalıqdan xilas olmaq, mənəvi dinclik və rahatlıq tapmaq, özünə qayıtmaq üçün pənah apardığı Heydərbaba dağı şair üçün adicə dağ deyil, dünəni-uşaqlığı, gəncliyi, ömrünün acılı-şirinli xatirələri hopmuş bir məbədgahdır, qibləgahdır, sözün böyük mənasında-ana Vətən timsalıdır!

Burda şirin xatirələr yatıblar,
Daşlarıylan başı başa çatıblar,
Aşnalığın daşın bizdən atıblar,
Mən baxanda qavzanıllar, baxıllar,
Bir də yatıb yandırıllar, yaxıllar [10, s.49].

"Heydərbabaya salam" poeması təsvirlərin səmimiliyinə görə ilk sətrindən insanı sehirləyir, huşyar oxucu Şəhriyarın poetik təsvirində həm də məhrəmanə bir doğmalıq hiss edir. Bu elə bir ali hissdir ki, insanı sanki içdən silkələyir, təmizləyir:

Bu damlarda çoxlu cızıq atmışam,
Uşaqların aşıqların udmuşam,
Qurquşunlu saqqa alıb satmışam,
Uşaq necə heç zadınan şad olar,
İndi bizim qəmi tutmur dünyalar [11, s.257].

Şair-ədəbiyyatşünas Məmməd İsmayıl "Heydərbabaya salam" poemasının məziyyətlərini təhlil edərkən bu amilə xüsusi diqqət yetirir: "Azərbaycan türkünün özünə qayıdışının ən böyük nümunələrindən biri də, heç şübhəsiz, Şəhriyarın sənətkarlıq gücündədir. Misralarının alt qatlarına, ta qədimlərdən gələn bir torpaq, ana südü, millət, adət və ənənələrin

qoxusu hopmuşdur. Onlardan dünyaya bir milli birlik ruhu yayılmaqdadır. Bu ruh əski dünyanın keçmişinə bürünmüş yepyeni bir canlanması idi. Bu Tanrıdan enib gələn dağ ruhu-Heydərbaba ruhu idi" [5, s.10].

Akademik İsa Həbibbəyli Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poemasında milli yaddaş amilini qabartmasını, bunu millətin əsas məziyyətlərindən hesab etməsini yüksək qiymətləndirir, əsəri əsəri ana dilimizə qoyulan abidə adlandırırdı: "Məşhur "Heydərbabaya salam" poeması əslində Şəhriyar üçün həm də şeirlə yoğrulmuş möhtəşəm Ana dili abidəsi idi" [4, s.19].

Yaz qabağı gün güneyi döyəndə,
Kənd uşağı qar güllərin sevəndə,
Kürəkçilər dağda kürək züvəndə,
Mənim ruhum elə bilin ordadır,
Kəklik kimi batıb qalıb, qardadır [11, s.239].

Tədqiqatımızın mövzusu olduqca genişdir və bu barədə çox yazmaq olar. Bu dəfəki araşdırmamızı sonlayarkən demək istəyirik ki, Seyid Məhəmmədhüseyn Şəhriyar ruhən milli köklərinə bağlı olmuş, bu bağlılığı bütün əsərlərində sevə-sevə tərənnüm və təbliğ etmişdir. Ustad sənətkar ruhunun daima doğulduğu yerlərə bağlı olduğunu, kənd uşağının təbiətə, ətraf aləmə olan saf sevgisinin onu heç zaman tərk etmədiyini, yurd sevgisinin qanına, canına hopduğunu "Heydərbabaya salam" əsərində real, dolğun boyalarla əks etdirə bilmişdir. Professor Elman Quliyevin əsəri Azərbaycan xalqının ensiklopediyası kimi dəyərləndirməsi bunun bariz sübutudur: "Şəhriyarın "Heydərbabaya salam" poeması Azərbaycan xalqının adi məişət tərzindən tutmuş ən ali fəlsəfi düşüncələri fonunda tipik Azərbaycan xarakteri, psixologiyası və milli xüsusiyyətlərinin yüksək bədii tərənnümünü nümayiş etdirən bir əsərdir" [7, s. 87].

**Nəticə**

Tədqiqatımızın yekunu kimi onu deyə bilərik ki, Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poemasında milli-mənəvi dəyərlərin təbliği və milli yaddaşa çağırış motivləri" məqaləsində ustad sənətkarın vətən, yurd sevgisi, milli mənəvi dəyərlərə bağlılığı məsələsini araşdırmış, gəldiyimiz qənaətləri poemadan gətirilən nümunələrlə əsaslandırmağa çalışmışıq. Tədqiqat zamanı Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poeması haqqında Azərbaycanın tanınmış ədəbiyyatşünas alimlərinin nəzəri fikirlərinə istinad etmiş, əsərlərini araşdırmaya cəlb etmişik.

Qeyd edək ki, "Məhəmmədhüseyn Şəhriyarın Heydərbabaya salam" poemasında milli-mənəvi dəyərlərin təbliği və milli yaddaşa çağırış motivləri" məqaləsi Şəhriyarın anadilli irsinin öyrənilməsi istiqamətində növbəti elmi-tədqiqat işimiz kimi faydalı sayıla bilər və bu araşdırmadan ali məktəb tələbələri, Şəhriyar poeziyasının araşdırıcıları, pərəstişkarları, oxucular faydalana bilərlər.

## Ədəbiyyat


1. Araz, M. (2004). Seçilmiş əsərləri I cild, “Lider nəşriyyatı”, 224 s.
2. Baxşəliyeva, G. (2011). Milli ruhun təntənəsi “Azərbaycan şərqşünaslığı”, №2 (6) s. 3-6.
3. Əliyev, H. (1996). Qayıdış (1991-1993-cü illər), Bakı: “Azərbaycan” nəşriyyatı, 792 s.
4. Həbibbəyli, İ. (1993). Ustad Məhəmmədhüseyn Şəhriyar, Bakı: “Elm” nəşriyyatı, 136 s.
5. İsmayıl, M. (2016). Məhəmmədhüseyn Şəhriyar şeirinin Azərbaycanın azadlıq mübarizəsindəki yeri. Hece taşları. Aylıq şeir dərgisi. №13, s. 10-13
6. İsmayılova, E. (2024). “Şəhriyar-söz mülkünün sultanı”. “525-ci qəzet”, 17 sentyabr 2024-cü il, s.13.
7. Quliyev, E. (2016). Şəhriyar yaradıcılığı milli-mənəvi dəyərlər kontekstində”, Bakı: “Azərbaycan məktəbi”, №5, s.82-87.
8. Rəhimli, Ə. (2011). Milli oyanışda Şəhriyar poeziyasının rolu, “Azərbaycan şərqşünaslığı”, №2(6) s.39-46.
9. Şəhriyar, M. (1332). Heydərbabaya salam, Təbriz: “Çapxanəyi-Ziba”, s.22
10. Şəhriyar, M. (2005). Seçilmiş əsərləri.Bakı: “AvrasiyaPress”, 480 s.
11. Şəhriyar, M. (2017). Əbədiyyət gülüyəm mən. Bakı: “Elm və təhsil”, 286 s.


## PROPAGANDA OF NATIONAL MORAL VALUES AND MOTIVES OF CALLING TO NATIONAL MEMORY IN THE POEM “GREETING TO HEYDARBABA” BY MUHAMMEDHUSEYN SHAHRIYAR


**Esmira Ismayilova**
Lankaran State University, Lankaran, Azerbaijan



The article describes the description and propaganda of national and moral values in the poem “Greetings to Heydarbaba” by Seyid Muhammadhuseyn Shahriyar, one of the famous figures of literature of South and North Azerbaijan of the twentieth century, who is called the sultan of the word class, including the issue of national memory, which is considered the most important problem of all times, and how it is reflected in the poem. In the research, these universal values are analyzed as one of the main directions of M. Shahriyar's work, the provisions put forward are supported by the provisions taken from the poem.

Along with the poem “Greetings to Heydarbaba” by the poet, in the research work also mentioned the works of his contemporaries, scholar-poets, related to the analyzed topic, and the results obtained by conducting comparative parallels were provided with a connection with the modern period. If necessary, the attitude of the researcher to the issue under research is reported.

In the article “Propaganda of national-spiritual values and motives of calling to national memory in the poem “Greeting to Heydarbaba” by Muhammadhuseyn Shahriyar, a wide space is devoted to the opinions of research scientists on this topic in modern Azerbaijani literature.

In the research of the topic “Propaganda of national and moral values and motives of calling to national memory in the poem “Greeting to Heydarbaba” by Muhammadahuseyn Shahriyar, the main goal is to once again draw

attention to the fact that the linguistic heritage of M. Shahriyar is relevant to this day, to show the importance of the messages that the poet wants to convey to the future generation, and to show the eternal life of the poem, studying its secrets in a modern context, it should justify its artistic and educational significance in our days, as well as direct the reader to the benefit of this valuable heritage.
Based on the analysis of literary examples in the research work, M. Shahriyar is assessed as a poet connected with his family roots, national and moral values, and the reflection and promotion of the problem of national memory in literature is recognized as an important factor.
**Keywords:** Shahriyar, “Greeting to Heydarbaba”, national and moral values, national memory, nationality, modernity, humanity

